**UOT792.03**

**Nərmin Tağıyeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin doktorantı**
**AZ1065, Bakı, İnşaatçılar pr.39**
**E-mail: narmin.tagiyeva.90@mail.ru**

# XX ƏSRİN 60-CI İLLƏRİNDƏ MİLLİ TEATR QAVRAYIŞINDA YENİLƏŞMƏ TENDENSİYALARI

**Xülasə**: Elmi məqalədə 1960-cı illərdə Azərbaycanda meydana gələn yeni teatr mühiti və onu formalaşdıran amillər araşdırılıb. XX əsrin 60-cı illərində səhnələşdirilən tamaşalar, onları digər dövrlərdən fərqləndirən əsas xüsusiyyətlər, teatr qavrayışında baş verən yeniliklər məqalənin əsas obyekti kimi götürülüb. Araşdırma zamanı Ə.Vəliyevin, M.Əlizadənin monoqrafiyalarından da köməkçi vasitə kimi istifadə olunmuşdur.

**Açar sözlər:** teatr, tamaşa, rejissor, aktyor, dramaturgiya.

Hər dövrün, zamanın və mühitin öz teatrı olur və o müxtəlif amillərin təsiri nəticəsində inkişaf edir, dəyişir, yenilənir. 60- cı illərin teatr prosesi görkəmli teatrşünas alimlərimiz tərəfindən tədqiq edilmişdir.Biz həmin tədqiqatlara istinad edərək sözügedən dövrə yeni baxış bucağından yanaşmağa çalışacağıq.

1960-cı ildə A.İskəndərovun Milli Dram Teatrının bədii rəhbərlyindən uzaqlaşdırılması ilə əlaqədar olaraq M.Məmmədovun həmin vəzifəyə gəlişi ilə mövcüd streotiplərin və monumental ənənələrin aradan qaldırılacağı düşünülürdü.Lakin bir faktı da qeyd etmək lazımdır ki, M.Məmmədov özü də bir rejissor kimi teatrda A.İskəndərov məktəbi keçmişdir və onun həmin vəzifəyə gəlişi əslində sonun başlanğıcı idi, daha dəqiq desək, M. Məmmədov teatrda yeni konsept yaradacaq rejissor deyildi.Doğrudur,

M.Məmmədovun təfsirində göstərilən tamaşalar ideya möhkəmliyinə, psixologizminə, lirizminə, fəlsəfi və estetik məqamlarına, məzmun və forma vəhdətinə görə seçilirdi. Lakin üslub baxımından A.İskəndərovun quruluşlarından bir o qədər də fərqlənmirdi. Belə ki, M.Məmmədov və A.İskəndərov teatrının estetik prinsiplərinin, təfəkkürünün və ənənələrinin davamçısı idi.Bədii rəhbər vəzifəsi M.Məmmədovla əvəz olunduqdan sonra teatrın konseptinin tamamilə dəyişəcəyini düşünənlər yanılmışdılar.1960-63-cü illərdə Dövlət Milli Akademik Dram Teatrına rəhbərlik edən M.Məmmədov yeni teatr konsepsiyasını yarada bilmədi.Rejissorun hazırladığı tamaşaları təbii ki, müasirlikdən uzaq adlandırmaq fikrimiz yoxdur. Sadəcə bir fakt ortadadır ki.onun teatr düşüncəsi dövri-mühitin əsl mahiyyətini açıb göstərə bilmədiyi üçün çağdaş teatr dəyərlərindən geri qalırdı. Bəlkə də, məhz bu səbəbdən M.Məmmədov 3 il sonra , 1963-cü ildə teatrda bədii rəhbər ( baş rejissor) vəzifəsindən öz istəyi ilə uzaqlaşdı.

Bəhs etdiyimiz dövrün milli teatrının əsas problemlərindən biri çox vaxt qəhrəmanın müsbət ideallarının arxa plana keçirilməsi və qabardılmaması idi.Bu problem isə dramaturqlardan qaynaqlanırdı. Fikrimizi bir az daha geniş ifadə edək. Əsər və tamaşa xalqın həyatını, tələblərini ifadə edən estetik idealdan doğur.Estetik ideal isə özünü daha çox əsərin müsbət xarakterlərinin davranış və hərəkətlərində biruzə verir. Bu tələblərə cavab verəcək əsərlərin və tamaşaların az olması 60-cı illərin ilk mövsümündə müşahidə edilirdi. Bu isə teatr prosesinin durğunlaşmasına gətirib çıxardırdı. Dramatuqlar müəllifi olduğu əsərlərdə həm də rejissor rolunda çıxış etməyi bacarmalı idi. C.Cabbarlının vaxtilə irəli sürdüyü "dramaturq həm də rejissor olmalıdır" fikri 60-cı illərin sovet teatrında da tətbiq edilməli idi.

60-cı illərin əvvəllərində teatrın inkişaf perspektivlərini möhkəmləndirmək üçün mütləq nəzərə alınmalı amillərdən ən əsası müasir mövzu yaratmaq şüarına məhdud çərçivədən yanaşmadan onun mənasını düzgün anlamaq idi. Fikrimizi bir az da dəqiqləşdirmək üçün qeyd etmək lazmdır ki, müasirlik dramaturgiya və teatrda konservatizimdən uzaqlaşaraq müasir həyatla rabitə yaradılmasını nəzərdə tutan anlayışdır. Lakinmüasirlik adı altında romatizmdən tamamilə ayrılaraq tamaşanı ifrat dərəcədə sadələşdirmək özü də yalnışdır.Həmin illərdə ele düşüncələr meydana gəlmişdir ki, guya sovet adamının bədii surətini təsvir edərkən romantizm meylindən əl çəkərək , obrazın bütün keyfiyyətlərini bəsitləşdirmək lazım idi. Bu problem isə əslində 20-30-cu illərdən qaynaqlanan və 60-cı illərdə də təzahür edən meyillər idi.60-cı illərin ilk mövsümündə Azərbaycanda müasir teatr sənətinin inkişafı üçün gənc rejissor qüvvəsinin yaradılması da ən vacib amillərdən idi.Biz həmin dövrdə teatrlarımızda gənc rejissorların məhdudluğunun əsas problem olduğu faktı ilə dövri- mətbuat vasitəsilə tanış oluruq.Teatrda baş verən bu və ya digər nöqsanları aradan qaldırmaq üçün yeni yaradıcılıq istqamətləri işlənib hazırlanmalı və teatrlar öz fəaliyyətində müəyyən dəyişikliklərə yol vermıəli idi. Hazırlanan tamaşalarda önəmli olan bir çox epizod göstərmək deyil, göstərilən bir neçə epizodda müəllifin nə demək istədiyini, ümdə məqsədini açmaqdır. Burada ən böyük öhdəlik isə rejissorun öhdəsinə düşür. Rejissor çalışmalıdır ki, tamaşa bitdikdən sonra onu izləyən seyrçilər həmin əhvalatlar haqqında düşünsün, onu öz həyatlarının gerçəkliyi ilə birləşdirsin, müqayisə etsin, nəticə çıxarsın, başqa sözlə, öz estetik təfəkkürünü inkişaf etdirsin. Rejissor tamaşada böyük qüvvədir.Əsər dramaturqun məhsuludursa, tamaşa rejissorun adı ilə bağlıdır.Uğurlu səhnə əsərinin yaranması dramaturqla rejissorun əməyinin vəhdətindən asılıdır.Bu dövrdə rejissordan yüksək müşahidəçilik qabiliyyəti, nəzəri bilik və pedaqoqluq tələb

edilirdi.Zaman keçdikcə rejissorlarımızın novatorluğunun, yeni forma və üslub axtarışlarının şahidi olacağıq.
60-cı illərin başlanğıcında milli dramaturgiyada və teatrda yaranan lirik-psixoloji üslub realist və romatik üslublardan öz xüsusiyyətlərinə görə fərqlənirdi.Biz bu üslubun estetik səciyyələri, poetik göstəriciləri və mahiyyəti haqqında görkəmli teatrşünas professor İ.Rəhimlinin “Teatr sənətinin estetik prinsipləri” monoqrafiyasından müfəssəl məlumat əldə edirik. Həmin araşdırmalara istinad edərək qeyd edə bilərik ki, lirik-psixoloji üslubda hazırlanan tamaşalarda səhnənin maksimum boşaldılması və bununla da bütün diqqətin aktyorlara yönləndirilməsi, psixoloji təfəkkürlü mizanlara önəm verilməsi, obrazlar arasında baş verən psixoloji münasibətlərin əsas götürülməsi, personajların daxili aləmlərinin ön planda durması, sözaltı mənalardan istifadə edilərək real həyat hadisələrinin səhnədə inikası milli teatrın nəaliyyətlərindən idi. 1964-cü ildən Akademik Milli Dram Teatrına baş rejissor təyin edilən T.Kazımovun əsasını qoyduğu bu üslub indiyə kimi aktyor və rejissorların istifadə etdiyi, yeni çalarlar verdiyi aparıcı aktyor məktəbidir. Bu məqamda qısaca haşiyə çıxaraq, qeyd etmək istərdik ki, T.Kazımovun lirik-psixoloji teatrı ilə B.Brextin epik teatrı arasında müəyyən oxşar xüsusiyyətləri aşkarlamaq mümkündür.Brext kimi Kazımovun da vacib hesab etdiyi amillərdən biri aktyorun öz bacarığını səhnədə göstərməsi idi. Hər iki rejissorun əsrlərdən bəri kök salmış,insanları tilsimləmiş teatr prinsiplərinə qarşı çıxması, yeni teatr qanunları toplusunu yaratması, əsas diqqəti aktyorlara yönləndirməsi ortaq yaradıcılıq keyfiyyətləri kimi xarakterizə edilə bilər. Məlum məsələdir ki, Brext yaxşı anlayırdı ki, gizlilik xalqın, tamaşaçının kriteriyasına, o cümlədən düşüncə azadlığına mənfi təsir göstərir.Məhz bu səbəbdən o, öz düşüncələrini pyeslərində əks etdirirdi.60-cı illərin ilk mövsümündən başlayaraq insanların cəmiyyətdəki real vəziyyətini yazdığı əsərlərdə göstərməyə çalışan İ.Əfəndiyev və həmin əsərlərə düzgün istiqamətdən və dissident mövqedən yanaşan T.Kazımov yaradıcılığında yuxarıda sadaladığımız düşüncə tərzini görmək mümkündür.Brext kimi Kazımov da tamaşaçıların izlədiyi hadisələri mütləq analiz edə bilmələrinin tərəfdarı idi.Oxuduğumuz və araşdırdığımız monoqrafiya və məqalələrdən də aydın olur ki, T.Kazımov hazırladığı tamaşalarda səhnəni boşaldaraq aktyorlara tam sərbəstlik verir və seyrçinin diqqətini aktyor oyununa yönləndirirdi.Qrotovskinin “kasıb teatrı”nda olduğu bu boşluqları öz xəyali dünyalarındakı obyektlərlə, təbii oyun tərzləri ilə doldurmaq aktyorlardan tələb olunurdu.

T.Kazımovun teatr prinsipləri bir çox tanınmış teatr nəzəriyyəçisi və rejissorların düşüncə və üslublarından şirələnərək özünəməxsus çalarları, estetik göstəriciləri ilə inkişaf edən yeni və orijinal məktəb idi. K.S.Stanislavskinin beş teatr prinsiplərindən biri olan özgələşmə, başqalaşma prinsipi T.Kazımov rejissurasında da təzahür edirdi.

Lirik-psixoloji üslubun Milli Teatrda bünövrəsi 1964-cü ildə görkəmli dramaturq İ.Əfəndiyevin “Sən həmişə mənimləsən” əsərinin tamaşası ilə qoyulmuşdur.Əsərə quruluş isə görkəmli rejissor T.Kazımov tərəfindən verilmişdir. Bu tamaşa Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının yaradıcı həyatında mühüm addım idi. Əsər müxtəlif obrazların daxili aləmini ön plana çəkərək insan fenomenini qabarıq təsvir etmişdir.T.Kazımov da dramaturqun bu mövqeyini dəstəkləyərək əsərin səhnə yozumunda həmin şərtlərə ciddi yanaşmışdır.

Əsərin əsasında həyatın acı gerçəklərindən biri olan təklik mövzusu durur. Bu həqiqət özünü Nargilənin, Həsənzadənin , Nəzakətin, Sarı saç qızın- bütün personajların həyatında göstərir. Tamaşanın əsas konflikti Həsənzadə obrazında öz əksini

tapır.Onun

daxilində iki konflikt bir-biri ilə üzləşir. Birincisi, gənc qız Nargilənin pak və səmimi sevgisi ona xoş təsir bağışlayır,ikincisi isə hisslərinə güc gəlir və yaxşı dərk edir ki, bu sevgiyə müsbət cavab verməyə onun qətiyyən haqqı yoxdur. Həsənzadə təkliyə qalib gəlir, Nargilə isə bu təkliyə son qoymaq üçün nə isə axtarır.

İ.Əfəndiyevin bu və ya digər əsərlərində kauzal konflikt özünü mükəmməl formada biruzə verirdi.Bu konflikt lirik-psixoloji üslubda daha çox təzahür etdiyi üçün 60-cı illərdə T.Kazımovun hazırladığı tamaşalarda aparıcı ənənə olaraq özünü biruzə verirdi. Rejissor "Ölülər", "Pəri cadu" kimi klassik əsərləri 60-cı illərin mühitinə adekvat formada hazırlamışdı. Bu həmin dövr üçün cəsarətli addım idi.Belə ki, həmin klassik əsərlər sovet dövrü ilə uyğunlaşmaya bilərdi, lakin rejissor bu problemin öhdəsindən öz yaradıcı potensialı ilə gəlmişdir. T.Kazımovun quruluşunda İskəndərin "Ölülər,Ölülər" deyərək birbaşa zala müraciət etməsi rejissorun dissident münasibətinin isbatı idi. Bu klassik əsərə yenidən müraciət edilməsində məqsəd milli şüurun oyanışını fəallaşdırmaq idi.

Son olaraq qeyd etmək istərdik ki, 60-cı illərdə milli teatr prosesi ilk baxışda qısa və sadə görünsə də,lakin əslində dərin araşdırma tələb edir. Teatrımız bu onillikdə bəlkə də 50 illik tarixində rast gəlmədiyi yeni və böyük teatr səhifəsini yaratmağa müvəffəq oldu.

## Ədəbiyyat:


1. Əlizadə M. Teatr: seyr və sehr. Bakı: Elm, 1998, 251s
2. Rəhimli İ. Teatr sənətinin estetik prinsipləri.Bakı:Çaşıoğlu, 2004. 280s
3. Rəhimli R. Azərbaycan teatr tarixi. Bakı: Çaşıoğlu 2005, 864 s
4. Vəliyev Ə. Əqidə, ruh və teatr. Bakı: 2009, 240s


**Нармин ТагиеваНовые тенденции в восприятии национального театра в 60-е годы XX века**

### Резюме


В научной статье описываются новая театральная атмосфера и важные факторы, которые повлияли на нее в 1960-х годах. Основной объект исследования - постановки спектаклей 1960-х годов, которые отличаются от постановок других периодов своими нововведениями. В процессе изучения данной проблемы автор обратился к монографиям, написанными М. Ализаде и А. Велиевым.


**Ключевые слова:** театр, спектакль, режиссор, актер, драматургия.

**Narmin TagiyevaNew trends in the perception of the national theater in the 60s of the XX centure**

### Summary


The scientific article describes the new theatrical atmosphere and important factors that influenced it in the 1960s. The main object of the research is the performances of the 1960s, which differ from the productions of other periods by their innovations. In the process of studying this problem, the author turned to

monographs written by M. Alizade and A. Veliyev.

**Keywords:** theatre, spectacle, director, actor, dramaturgy.

**Məqalənin redaksiyaya daxil olma tarixi:**
**20.09.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi:**
**30.09.2018Məqalənin çapa qəbul olunma tarixi:**
**03.10.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**professorAydın Talıbzadə**
**ADMİU-nun Elmi Şurasının 22 dekabr  2018-ci il, 04 saylı qərarı ilə çap olunur**